UOT 930.85
https://doi.org/10.30546/3006-0346.2025.3.87.581

# QAFQAZ ALBANİYASININ ƏHALİSİ (III-VII ƏSRLƏR)

**AİDA TEYMUROVA**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun doktorantı*

*E-mail: aida.teymurova99@mail.ru*
*Orcid id: 0009-0002-0075-6871*

### Giriş

Qafqaz Albaniyası Şərqi Qafqazda yerləşən və mühüm coğrafi və tarixi əhəmiyyəti olan bir region olmuşdur. Bu ərazi tarixən müasir Azərbaycan, Gürcüstan və Dağıstanın bir sıra ərazilərini əhatə etmiş çoxlu tayfaların və etnik qrupların məskunlaşdığı mədəniyyətlərarası mərkəz olmuşdur. Qafqaz Albaniyasının coğrafi mövqeyi strateji əhəmiyyətə malik idi. Çünki bu region Xəzər dənizinin sahilində yerləşirdi, istər ticarət yollarının, istərsə də hərbi münaqişələrin keçdiyi bir ərazi kimi həm Qərb, həm də Şərq mədəniyyətləri ilə sıx əlaqəyə malik olmuşdur. Bu regionda ayrı-ayrı xalqlar arasında mədəni və ticarət əlaqələri mövcud idi, eləcə də hərbi və siyasi münasibətlər qurulmuşdur. Qafqaz Albaniaysında yalnız albanlar deyil, o cümlədən müxtəlif etnik qruplar məskunlaşmışdır. Bunlara kaspilər, utilər, çilblər, leqlər, saklar, kəngərlər və başqalarını aid edə bilərik. Bu müxtəlif etnik qruplar özlərinə məxsus olan dilləri, mədəniyyətləri və sosial quruluşları ilə sıx əlaqədə olmuşdur. Məqalədə Qafqaz Albaniyası ərazisində məskunlaşmış bu xalqların etnik quruluşu, eləcə də regionun coğrafiyası, tarixi və bu xalqların bir-biri ilə əlaqələri tədqiq edilmişdir. Bu region həm sosial, həm də coğrafi cəhətdən zəngin mədəniyyətə malik olmuşdur. Ərazidə baş vermiş tarixi proseslər Qafqaz Albaniyasında əhalinin inkişafını və bu cəmiyyətdə etnik müxtəlifliyin rolunu formalaşdırmışdır. Bu kontekstdə məqalənin məqsədi Qafqaz Albaniyasının ayrı-ayrı etnik qruplarının sosial-strukturlarını, həyatını, mədəniyyətini, eləcə də bu xalqların arasındakı qarşılıqlı təsiri işıqlandırmaqdır.

### Tarixi və coğrafi vəziyyəti

Qafqaz Albaniyasının qədim və erkən orta əsrlər dövründəki siyasi sərhədləri və ərazisinin tədqiq edilməsi Qafqaz Albaniyasının tarixinin öyrənilməsində çox böyük əhəmiyyəti olan mübahisəli və mürəkkəb bir məsələdir. B.Dorn, A.Yanovski, Z.Yampolski, V.Tomaşek, V.Leviatov, S.Yusikov, A.Krımski, A.Novoseltsev, K.Trever, T.Papuaşvili, D.Musxelişvili, K.Əliyev, T.Məmmədov kimi bir çox tədqiqatçılar tərəfindən Qafqaz Albaniyasının qədim və erkən orta əsr dövrü sərhədləri və ərazisi problemi araşdırılmışdır. Erkən orta əsr yazılı mənbələrində Qafqaz Albaniyasının erkən orta əsrlər dövründəki sərhədləri və ərazisi barədə müxtəlif məlumatlar mövcuddur. Erkən orta əsr yazılı mənbəlsi olan Yeqişe [18, s.3], Favstos Buzand [46,k. IV], Ananiya Şirakasi [39, s.17], M.Xorenasi [38 k.II, fəs.8, s.12, 51], o cümlədən erkən orta əsr alban tarixçisi M. Kalankatlı [37, k.I, fəs.4,s. 5] tərəfindən qeyd edilmişdir ki, Albaniya ərazi baxımından şimalda Böyük Qafqaz dağlarınadək uzanmış, eləcə də Sarmatiya ilə əlaqələnmişdir [33, s.28,184]. F.Buzand [46, k.V, fəs.12], A.Şirakasi [39, s.17, 19, 20] və L.Parpesiyə [26, fəs.33, s.42] görə Qafqaz Albaniyası cənubda Paytakaran, Muğan və Mil də daxil olmaqla Kür-Araz çayları qovşağınadək uzanmışdır [33, s.29, 184]. Şərqdə isə Qafqaz Albaniyasının ərazisi Xəzər dənizinədək davam etmişdir [39, s.17; 33, s29,184].

Erkən orta əsr yazılı mənbələrinin məlumatlarından belə qənaətə gəlmək olur ki, Qafqaz Albaniyası III-VII əsrlər dövründə çox böyük əraziyə malik olmuşdur. III-VII əsrlər dövründə Qafqaz Albaniyası şimalda Böyük Qafqaz dağlarından başlamış cənubda Kür və Araz çaylarının qovşağınadək, şərqdə Xəzər dənizi, qərbdə isə İberiyaya qədər olan ərazini əhatə etmişdir.

### Qafqaz Albaniyası ərazisində məskunlaşan tayfalar və etnik quruluş

Qafqaz Albaniyasında yaşayan tayfaların etnik tərkibi mübahisəli və mürəkkəb bir məsələ hesab edilir. İ.Əliyev, A.A.Bakıxanov, Z.Yampolski, S. Yeremyan, V.Minosrki, M.Barxudaryan, T.Məmmədov, Z.Bünyadov, T.Papuaşvili, A.Novoseltsev, L.Melikset-Bek və başqa tədqiqatçılar tərəfindən bu problem müəyyən dərəcədə işşıqlandırılmışdır. Qafqaz Albaniyasının erkən orta əsrlər dövründəki etnik tərkibi məsələsi həm siyasi, həm də elmi tərəfləri olan bir problemdir. Hazırkı Azərbaycanda bir sıra etnik qrupların qədimdə ölkəmiz əraizisində yerli tayfalar ilə qaynayıb-qarışması və həmin

tayfalardan kiçik bir qisminin hazırkı dövrə qədər ölkəmizin ərazisində məskunlaşması bu problemin elmi tərəfidir. Bu məsələdə siyasi tərəf isə odur ki, bir sıra tədqiqatçılar tərəfindən yerli etnoslar özgələşdirilmiş, gəlmələr isə əksinə yerli xalq kimi təqdim edilmişdir. K.Trever [44,s. 11], S.Yeremyan [42, c.II, s.304,328-329], A.Mnatsakanyan [36, s.15-25] və bir sıra başqa tədqiqatçılar qeyd edirlər ki, qədim və erkən orta əsrlər dövründə Qafqaz Albaniyasında yerli əhali qonşular tərəfindən assimilyasiyaya məruz qalmışdır. Erməni tarixçisi A.Babaxanyan tərəfindən də tarixi həqiqət yanlış şəkildə təqdim edilmişdir. O qeyd etmişdir ki, V əsrin sonlarında Qafqaz Albaniyası əhalisinin təkcə yarısı öz milli mənsubiyyətlərində qalmışdır. Digərləri isə erməniləşmişdir [28-29, s.333-334]. Onu da qeyd etmək lazımdır ki, Qafqaz Albaniyasındakı etnik problemi tədqiq edənlərin demək olar ki, hər biri israr edirlər ki, türkmənşəli tayfalar bu əraziyə gəlmə tayfalardır.

**Albanlar**. Albanlar Qafqaz Albaniyasının ən qədim və böyük yerli tayfalarından olmuşdur. Bu məlumatı erkən orta əsr yazılı mənbələri olan Aqafanqel [13, s.117, kII fes.85, s.58], Asoqik [43, k.II, fəs.1, s. 204], L.Parpesi [26, fəs.25, s. 26, 33, 75], Z.Ritor [40, s.109,114; 41. S.165], M.Kalankatlıdan [37, k.III, fes.5 s. 29-32] əldə etmək mümkündür.

Bir sıra tədqiqatçılar tərəfindən albanların lokallaşdırılması problemi də araşdırılmışdır. Onlar yazılı mənbələrə əsasən müasir Mil və Qarabağ, o cümlədən Arazın sol sahil ərazilərindəki albanları lokallaşdırmışdır [45, c.I, s.224, 42, c.II, s.303.] Onlar Kürün şimalında yaşamışdır [44, s44; 6, s.16], digər qismi isə İori, Alazan [42, c.II, s. 304; 6, s.16], Kambiçena [6, s.16] və Kaspi (Xəzər) dənizi [44, s.46; 6,s.16] yaxınlığında məskunlaşmışdır.

“Alban” sözü, ümumiyyətlə, iki mənada istifadə edilir. Bu sözə yazılı mənbələrdə həm ölkə, həm də etnos anlamında rast gəlinir. Latın və yunan dillərində qədim və erkən orta əsr yazılı mənbələrində “Albaniya”, qədim ermənicə isə “Alvan”, “Alvanık” olaraq qeyd edilmişdir. “Alban” sözü bir çox tədqiqatçılar tərəfindən etimoloji baxımdan təhlil edilmişdir [12, s.9 ;44, s.4]. Ancaq bu söz dövrümüzə qədər dəqiq şəkildə müəyyənləşdirilməmişdir. Tədqiqatçıların bir qisminin fikrincə, bu söz “dağlar ölkəsi” [44, s.5; 24, s.353-364],digər bir qisminin fikrinə görə isə “ağ” mənasındadır [12, s. 9; 44, s. 4-5]. Burada tədqiqatçıların hər iki qrupu bu sözün mənasını latın-yunan dili çərçivəsində müəyyənləşdirmək istəmişdir. Başqa bir qrup tədqiqatçılar isə bu sözün “igid”, “cəsur” mənasını verən türkmənşəli söz olduğunu qeyd etmişdir [2, s.354-355]. Hazırkı dövrə qədər bu sözlər Azərbaycan dilində müəyyənləşdirilməmişdir. Ancaq “Alvank”, “Albaniya”, “Alvan” olaraq günümüzə qədər gəlib çatan bu sözləri ana dilimizdə aydınlaşdırmağa çalışdıqda başqa məna ortaya çıxır.

**Utilər**. Qafqaz Albaniyasında utilər də yerli tayfalardan biri olmuşdur. Qədim və erkən orta əsr yazılı mənbələri F.Buzand, Aqafanqel, Yeqişe, L.Parpesi, A.Şirakasi, Vardan, Asoqik, M.Kalankatlı tərəfindən utilər barədə məlumat verilmişdir. [13, s.20-21, 441; 4, s.115, 117; 31, s.59]. Utilərin Qafqaz Albaniyasının yerli tayfalarından biri olması barədə həmçinin ərəb coğrafiyaçıları tərəfindən də məlumat verilmişdir [10, s.13]. V. Fon, A.Şifner, A. Dirr, L.Lopatinski, N.Yakovlev, N.Marr, L.Zaqurski, M.Djanaşvili, İ.Əliyev, B.Lalayan tərəfindən iddia edilir ki, utilər İber-Qafqaz qrupuna aiddir [21, s.9; 30, s.4]. Bir qrup tədqiqatçılar isə qədim və erkən orta əsr yazılı mənbələrinə əsaslanaraq haqlı olaraq qeyd edirlər ki, utilər İber-Qafqaz dil qrupuna deyil, türk dilləri qrupuna mənsubdurlar və türkmənşəlidirlər. Bunu toponimik faktlar da sübut edir [9, s. 60-61; 2, s.348-351]. Hələ 1834-1835-ci illərdə utilər E.Eyxvald tərəfindən udmiyrtlarla eyniləşdirilmiş və türkmənşəli olduğu bildirilmişdir, həmçinin utilərin uqor-fin dil qrupuna mənsub olduğu qeyd edilmişdir [7, s. 93-94].

Bunlar onu deməyə əsas verir ki, utilər Qafqaz Albaniyasında məskunlaşan yerli və qədim tayfalardan olmuşdur.

**Kaspilər**. Qafqaz Albaniyasında yerli tayfalardan biri də kaspilər olmuşdur. Kaspilər barədə erkən orta əsr yazılı mənbələrində məlumatlar mövcuddur. Erkən orta əsr yazılı mənbələri A.Şirakası və F.Buzand bu tayfalar barədə məlumat vermişdir [46, k.V, fəs.14; 39,s.6]. F.Buzand tərəfindən qeyd edilmişdir ki, kaspilər Araz və Kür çaylarının aşağı qovşağında məskunlaşmışdır. Eyni zamanda onu da qeyd etmişdir ki, bu ərazidə pars(fars)lar da məskunlaşmışdır [46, k.V, fəs.14; 31, s. 59]. A.Şirakasi tərəfindən qeyd edilmişdir ki, kaspilərin məskunlaşdığı ərazi Arazın cənub-şərqindəki torpaqlar olmuşdur [39, s.6; 31, s. 59]. IV əsr yunan-bizans mənbələrində də kaspi tayfaları barədə məlumatlar mövcuddur [27, s. 222,270,272,321].

**Çilblər**. Qafqaz Albaniyasında erkən orta əsrlər dövründə məskunlaşan tayfalardan biri də çilblər olmuşdur. Bu tayfalar yunan yazılı mənbələrində silvlər olaraq adlandırılır [44, s. 47]. Çilblər barədə erkən orta əsr yazılı mənbələri olan Yeqişe, F.Buzand, A.Şirakasi, Aqafanqel tərəfindən məlumatlar verilmişdir [46, k.III, fes7; 31, s. 59; 44, s. 47]. Eyni zamanda M.Kalankatlı da çilblər barədə məlumat vermişdir [37, k.II, fəs10, s.68-75]. Bir çox tədqiqatçılar tərəfindən çilblərin yaşadıqları ərazilər araşdırılmışdır. M.Barxudaryan tərəfindən qeyd edilmişdir ki, çilblər Quba kəndi və Dəvəçi çayı arasındakı ərazilərdə yaşamışdır [11, s.76]. K.Trever isə qeyd etmişdir ki, çilblər Dağıstan bölgəsində məskunlaşmışdır [44, s. 192] S.Yeremyan tərəfindən isə qeyd edilmişdir ki, çilblər Böyük Qafqazın cənubunda məskunlaşmışdır [20, s. 148]. K.Əliyev isə qeyd etmişdir ki, çilbər Samur çayından cənubda məskunlaşmışdır [6, s. 17]. Q.Qeybullayev toponimik materiallar əsasında belə qənaətə gəlmişdir ki çilblər Qafqaz dil qrupuna mənsub olmuşdur [6, s. 154-155]. Bu məlumatlar əsasında belə qənaətə gəlmək olar ki, çilblər Samur çayından cənubda, Alazanın yuxarı axarında, Böyük Qafqazın cənubunda məskunlaşmışdır və mənşə baxımından Qafqaz dil qrupuna mənsub olmuşdur.

**Leqlər**. Qafqaz Albaniyası ərazisində yaşayan tayfalardan biri də leqlər olmuşdur. A.Şirakasi tərəfindən qeyd edilmişdir ki, leqlər Sarmatiya ərazisində məskunlaşmışdır [39,s. 6]. Leqlər barədə həmçinin M.Xorenasi tərəfindən də məlumatlar verilmişdir [38, k.III, fəs.37, s. 38]. Qədim gürcü yazılı mənbələrində leqlər Lekan yaxud Lekos olaraq adlandırılmışdır [17, s.9] Qədim gürcü yazılı mənbələrində qeyd edilmişdir ki, leqlər Kaspi dənizi, Terek və Volqa çayınadək olan torpaqlarda məskunlaşmışdır [17, s.9]. İ.Əliyev laklarla leqləri eyniləşdirmişdir [5, s. 104-105], o cümlədən qeyd etmişdir ki, leqlər irandilli olmamışdır [5, s.102-103]. K. Əliyevin fikrincə, leqlər Samur çayının cənub hissəsində yaşamışdır [6, s.16]. M.İxilov qeyd etmişdir ki, leqlər Samur və Qudyal çaylarının vadisində məskunlaşmışdır [23, s.68-106]. Bu məlumatlar əsasında belə qənaətə gəlinir ki, leqlər müasir laklar və ləzgilərin əcdadları olmuşdur. Məskunlaşdıqları ərazilər isə Qudyal və Samur çaylarının hövzəsindəki dağlıq ərazilər olmuşdur.

**Saklar**. Qafqaz Albaniyasında yaşayan tayfalardan biri də saklar olmuşdur. M.Kalankatlı tərəfindən qeyd edilmişdir ki, Şakaşen vilayəti alban vilayətlərindən biri olmuşdur [37 k.II, fəs.2, s. 29-32]. A.Şirakasi də bu məlumatı təsdiq etmişdir [39, s.45, 51]. A.Şirakasi eyni zamanda onu da qeyd etmişdir ki, Şakaşen vilayəti Arsax və Kür çayı arasında idi, o cümlədən Uti nahiyəsinin tərkib hissəsi olmuşdur [39, s. 51]. K.Trever isə belə hesab edir ki, Şakaşen vilayəti Alazan və İori çaylarının Kürə töküldüyü yerdə Kürün sağ sahilində mövcud olmuşdur [44, s.49]. K.Əliyevin fikrincə, Şakaşen hazırkı Gəncə ərazisində lokallaşmışdır [6, s.17]. Bir sıra tədqiqatçılar tərəfindən sakların mənşə və dil problemi də araşdırılmışdır, yazılı mənbələrə və tarixi faktlara əsaslanaraq belə qənaətə gəlmək olar ki, sakların müəyyən hissəsi türk ailə qrupuna mənsub olmuşdur və türkmənşəlidir [35, s.117-136; 16, s.103]. Tədqiqatlara əsasən saklar hazırkı Gəncə və Şəki ərazilərində Kürün sol sahilində məskunlaşmışdır.

**Kəngərlər**. Qafqaz Albaniyası ərazisində məskunlaşmış tayfalardan biri də kəngərlər olmuşdur. Erkən orta əsr yazılı mənbəsi Lazar Parpesi qeyd etmişdir ki, kəngərlər tayfası hazırkı Cənubi Azərbaycan və Naxçıvan ərazisində, Gürcüstan və Ermənistan sərhədlərinə yaxın torpaqlarda, Kürün yaxınlığında məskunlaşmışdır və bu əraziləri isə kəngərlər torpağı adlandırmışdır [26, s.132]. A.Şirakasi yazır ki, kəngərlər tayfası Albaniya ilə İberiya arasındakı ərazilərdə məskunlaşmışdır [39, s. 51]. S.Klyaştornı qeyd etmişdir ki, kəngərlər İberiya və Albaniya sərhədində lokallaşmışdır [309, s.175]. Bir çox tədqiqatçılar tərəfindən kəngərlər dil və mənşə baxımından türk dil qrupuna daxil edilmişdir [48, s.77-78; 15, s.120-121].

Qafqaz Albaniyasında erkən orta əsrlər dövrü etnik proseslər baxımından mühüm bir dövr olmuşdur. Bu dövrdə yeni türkmənşəli tayfalar Qafqaz Albaniyası ərazisinə ardıcıl şəkildə gəlmiş və türk dil qrupuna mənsub tayfalar artmağa başlamışdır.

## Nəticə

Qafqaz Albaniyasında III-VII əsrlər arasında məskunlaşan xalqlar regionun zəngin mədəniyyəti və tarixini təmsil edən ayrı-ayrı sosial və etnik strukturlara malik olmuşdur. Albanlar, kaspilər, utilər, çilblər, leqlər, saklar, kəngərlər kimi xalqlar arasında qarşılıqlı şəkildə mədəni mübadilə, ticarət əlaqələri mövcud olmuşdur. Bu xalqların dilləri və mədəniyyətləri eyni olmasa da, bu müxtəliflik birgə həyatı daha da zənginləşdirmişdir, nəticədə region

unikal mədəniyyət mərkəzi hesab edilmişdir. Qafqaz Albaniyasının etnik müxtəlifliyi, coğrafi mövqeyi bu ərazinin mədəniyyət, ticarət, hərbi cəhətdən rolunu daha da artırmışdır. Regionun Xəzər dənizi sahilində olması həm Qərb, həm də Şərq dünyası ilə əlaqələri daha da artırmış və regiondakı ayrı-ayrı xalqların mədəniyyətlərini yaxınlaşdırmışdır. Eyni zamanda Qafqaz Albaniyasında əhali çoxlu xalqların və tayfaların birlikdə yaşadığı bir cəmiyyət yaratmış, mədəniyyətlərin birləşməsi nəticəsində bu ərazi dünya tarixində mühüm rol oynamışdır. Bu məqalədə aparılmış təhlillər Qafqaz Albaniyasının sosial və mədəni inkişafını, o cümlədən bu ərazidə məskunlaşmış xalqların qarşılıqlı əlaqələrini anlamaq baxımından mühüm rola malikdir.

**Açar sözlər:** *Qafqaz Albaniyası, etnik tərkib, yerli tayfalar, tarixi-coğrafi bölgü.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Hüseynov, R.Ə., Cavadov, Q.C. (1999) Udilər (tarixi-etnoqrafik tədqiqat). Bakı: Elm, 256 s.*

*2. Kazımov, Q. Ş. (2003) Azərbaycan dilinin tarixi. Bakı: Təhsil, 583 s.*

*3. Qeybullayev, Q. A. (1994) Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 248 s.*

*4.Агафангел. (1905) Крещение армян, грузин, абхазов и аланов св. Григорием. Арабская версия (Пер. Н. Марра). В Записки Восточного отделения Императорского Русского археологического общества, 16(вып. II–III), с.63–211.*

*5. Алиев, И. Г. (1969) История Мидии. Баку: АН Азерб. ССР, 360 с.*

*6. Алиев, У. Г. (1960) К вопросу о племенах Кавказской Албании. В И. А. Орбели (Ред.), Сборник в честь академика Орбели И. А. Москва–Ленинград: АН СССР, сс. 15-19*

*7. Артамонов, М. И. (1962) История хазар. Л.: Гос. Эрмитаж, 522 с.*

*8. Ачарян, Р. (1897) Мовсес Каганкатваци. Исследование времени написания. Базмавэн, с. 370–374.*

*9. Ашурбейли, С. Б. (1984) Государство Ширваншахов (VI–XVI вв.). Баку: Элм, 342 с.*

*10. Балазури. (1927) Книга завоевания стран (Пер. и ред. П. К. Жузе,). В Материалы по истории Азербайджана / Общество по изучению и обследованию Азербайджана. Баку, 42 с.*

*11. Бархударян, М. (1893) Агванк и их соседи. Тифлис. (на арм. яз.), 302 с.*

*12. Бакиханов, А. А. (1926) Гюлистан-и Ирам. В Труды Общества обследования и изучения Азербайджана (Вып. 4). Баку, 196 с.*

*13. Без автора. (1882) История Армении,на древнеарм. яз., 524 с. Тифлис. Также издано: (1909) 582 с.*

*14. Гевонд Вардапет. (1887) История Халифов (на древнеарм. яз.,). Санкт-Петербург, 202 с.*

*15. Гейбуллаев, Г. А. (1984) К этногенезу азербайджанцев (по данным топонимии). В К проблеме этногенеза азербайджанского народа. Баку: Элм, 158 с.*

*16. Григорьев, В. В. (1871) О скифском народе саках. Санкт-Петербург.*

*17. Джанашвили, М. Г. (1897) Известия грузинских летописей и историков о Северном Кавказе и России. Описание Осетии, Дзурдзукии, Дидоэтии, Тушетии, Алании и Джикетии. О царях Хазаретии, Алгузиании. Сборник материалов для описания местностей и племён Кавказа (СМОМПК), вып. 22, отд. I. Тифлис, с.1-196*

*18. Егише. (1892) История Вардана и армянской войны.на древнеарм. яз., 291 с. Москва. Также издано: Тифлис, (1904) 296 с.*

*19. Еремян, С. Т. (1939) Раздел об Албании. В История СССР с древнейших времен об образовании древнерусского государства (ч. I–II). М.-Л.: АН СССР, с.207-209*

*20. Еремян, С. Т. (1939) Моисей Каланкайтукский о посольстве албанского князя Вараз-Трдата к казарскому хакану Алп-Илитверу. ЗИВАН СССР, 7, с.129–155.*

*21. Загурский, Л. П. (1888) Этнологическая классификация кавказских народов. Приложение к Кавказскому календарю, извлечение из рукописного труда, с.129–155.*

*22. Ибн Хордадбех. (1903) «Книга путей и государств». В: Караулов, Н. А. Сведения арабских писателей о Кавказе. Сборник материалов для описания местностей и племён Кавказа (СМОМПК), вып. 32, отд. I, Тифлис, с. 1-21*

*23. Ихилов, М. И. (1969) К вопросу о происхождении народностей Лезгинской группы. Ученые записки Дагестанского филиала АН СССР, Серия общественных наук, кн. II, т. 19, с.68–106.*

*24. Казиев, С. М. (1965) О древних погребаль-*

*ных обрядах на территории Кабалы. В Материалы по истории и археологии Азербайджана (Т. VI, на азерб. яз.). Баку: АН Азерб. ССР,с.235-251*

*25. Кляшторный, С. Г. Древнетюркские рунические памятники как источник по истории Средней Азии. Москва: Наука, 214 с.*

*26. Лазарь Парпеци. (1907) История (на древнеарм. яз.). Тифлис, 456 с.*

*27. Латышев, В. В. (1948) Известия древних писателей о Скифии и Кавказе. Вестник Древней Истории, 3, с.220–321.Латышев, В. В. (1949) Известия древних писателей о Скифии и Кавказе. Вестник Древней Истории, 3,с.220–291.Латышев, В. В. (1949) Известия древних писателей о Скифии и Кавказе. Вестник Древней Истории, 4, с.230–244.*

*28. Лео. (1947) История Армении (Том II, на арм. яз.). Ереван, 764 с.*

*29. Лео. (1967) Собрание сочинений (Том I, на арм. яз.). Ереван, 587 с.*

*30. Лопатинский, Л. Г. (1921) Лекции по кавказоведению. Известия Курсов Кавказской журналистики, (2), с.1–16.*

*31. Мамедов, Т. М. (1975) К вопросу об этническом составе Азербайджана IV–VII вв. (по древнеармянским источникам). Доклады Академии наук Азербайджанской ССР, 31(9), с.58–61.*

*32. Мамедов, Т. М. (1977) Албания и Атропатена по древнеармянским источникам (IV–VII вв.). Баку: Элм, 147 с.*

*33. Мамедов, Т. М. (1993) Кавказская Албания (IV–VII вв.). Баку: Маариф, 214 с.*

*34. Манандян, Я. А. (1957) Критический обзор истории армянского народа. Часть I (на арм. яз.). Ереван, 462 с.*

*35. Миллер, В. Ф. (1887) Осетинские этюды (ч. III). Москва.*

*36. Мнацаканян, А. Ш. (1969) О литературе Кавказской Албании. Ереван: АН Арм. ССР, 220 с.*

*37. Мовсес Каганкатваци. (1860) История Албанской страны (на древнеарм. яз.) 286 с. Москва. Также издано: Париж, 1960 432 с.*

*38. Мовсес Хоренаци. (1881) История Армении (на древнеарм. яз.). Тифлис, 656 с.*

*39. Патканов, К. П. (1877) Армянская география VII в. (приписываемая Моисею Хоренскому): Текст и перевод с древнеармянского с присовокуплением карт и объяснительных примечаний. Санкт-Петербург, с. 26-84*

*40. Пигулевская, Н. Б. (1939) Сирийские источники VI в. о народах Кавказа. Вестник древней истории, (1[6]), с.107–115.*

*41. Пигулевская, Н. В. (1941) Сирийские источники по истории народов СССР. Москва–Ленинград: АН СССР, 170 с.*

*42. Рыбаков, Б. А. (Ред.). (1958) Очерки истории СССР. Кризис рабовладельческой системы и зарождение феодализма на территории СССР (III–IX вв.) (Том II ). Москва: АН СССР, 947 с.*

*43. Степанос Таронский (Асогик). (1885) Всеобщая история (на древнеарм. яз.). Санкт-Петербург, 438 с.*

*44. Тревер, К. В. (1959) Очерки по истории и культуре Кавказской Албании (IV в. до н.э. – VII в. н.э.). Москва–Ленинград: АН СССР, 389 с.*

*45. Третьяков, П. Н., & Монгайт, А. А. (Ред.). (1956) Очерки истории СССР. Первобытнообщинный строй и древнейшие государства на территории СССР (Том I ). Москва: АН СССР, 615 с.*

*46. Фавстос Бузандаци. (1832) История Армении (на древнеарм. яз.). Венеция.*

*47. Шанидзе, А. Г. (1960) Язык и письмо Кавказских албанцев. Вестник отделения общественных наук АН Груз. ССР, (1), с.168–189.*

*48. Юсифов, Ю. Б. (1974) О некоторых языковых элементах тюркского происхождения в сочинения албанского историка. Советская тюркология, (2), с.71–79.*

*49. Юшков, С. В. (1937) К вопросу о границах древней Албании. Исторические записки АН СССР, 1, с.129–148.*

## The population of Caucasian Albania (3rd-7th centuries)

**A.A.Teymurova**
***PhD student at the A.A.Bakikhanov Institute of History and Ethnology of ANAS***

**SUMMARY**

This article examines the ethnic composition, social and cultural structure, and the geopolitical context of Caucasian Albania during the 3rd to 7th centuries. Based on various early medieval written sources and modern scholarly research, the study investigates the origin, settlement areas, and linguistic

affiliation of local tribes such as the Albans, Utians, Caspians, Gargar, Lipins, Leggs, Maskuts, Saks, and others. The paper also explores the interrelations among these tribes and their influence on the ethnocultural landscape of Caucasian Albania. The findings demonstrate that the region's diverse ethnic composition played a significant role in its historical development.

**Keywords:** *Caucasian Albania, ethnic composition, local tribes, historical-geographical division.*

## Население Кавказской Албании (III–VII века)

**А.А.Теймурова**
***Аспирант Института Истории и Этнологии имени А.А. Бакиханова НАНА***

**РЕЗЮМЕ**

В данной статье рассматривается этнический состав, социальная и культурная структура, а также геополитическое положение Кавказской Албании в III–VII веках. На основе различных средневековых письменных источников и современных научных исследований анализируются происхождение, ареалы расселения и языковая принадлежность таких местных племён, как албаны, утии, каспии, гаргары, липины, леги, маскуты, саки и другие. Также исследуются взаимосвязи между этими племенами и их влияние на этнокультурную структуру Кавказской Албании. В результате установлено, что этническое разнообразие региона сыграло важную роль в его историческом развитии.

**Ключевые слова:** *Кавказская Албания, этнический состав, местные племена, историко-географическое районирование.*